İPƏK YOLU, No.2, 2026, səh.266-275
https://doi.org/10.30546/SI.2026.2.01.775

# “ERMƏNİ SOYQIRIMI”: UYDURMA VƏ GERÇƏKLƏR

**Rəna Əsədova**

AMEA Tarix İnstitutu, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: rena-beyler@gmail.com

**Xülasə.** Birinci dünya müharibəsi başlandıqdan sonra Qafqaz cəbhəsində bu ağır döyüşlərin getdiyi zaman erməni silahlı dəstələri döyüşən Osmanlı ordu birliklərinin arxasında təxribat törədilməsini, yolları, körpüləri dağıdıb; ərzaq və sursat aparan arabalara, yaralıları daşıyan kanvoylara zərbə vurmağı, yaralıları məhv etməyi daha da genişləndirdilər. Kişiləri döyüşən orduda olan türk və kürd kəndlərinə quldur basqınları edərək qadın, uşaq və qocalara işgəncə verməyə, qətliamlar törətməyə başladılar. Müharibənin ilk aylarından başlayan və getdikcə geniş miqyas alan bu qətliamlara qarşı Osmanlı dövləti bir sıra tədbirlər görməli oldu. Türklərin erməni silahlı dəstələrinə müqavimət göstərməsi nəticəsində hər iki tərəfdən çoxlu sayda insan həlak oldu. Məqalədə bütün bu məsələlər sənədlər və digər qaynaqlar əsasında araşdırılmışdır.

**Açar sözlər:** Müharibə, erməni drujinaları, erməni əhalisinin köçürülməsi, soyqırımı, qətl və qarətlər.

**“ARMENIAN GENOCIDE”: FICTIONS AND FACTS**

**Rana Asadova**
*Institute of History ANAS, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** After the outbreak of World War I, during fierce fighting on the Caucasus Front, Armenian armed groups carried out sabotage behind Ottoman Army lines, destroying roads and bridges; attacking food and ammunition wagons and convoys of wounded soldiers and massacring the wounded. They began raiding Turkish and Kurdish villages, whose men were fighting in the war, torturing women, children and the elderly and committing mass murder. The Ottoman state was forced to take a number of measures to combat these massacres, which began in the first months of the war and escalated in scale. Turkish resistance to Armenian armed groups resulted in the deaths of numerous people on both sides. This article examines these issues based on documents and other sources.
**Keywords:** War, Armenian squads, resettlement of the Armenian population, genocide, murders and robberies.

## 1. Giriş

Birinci dünya müharibəsinin gedişində Qafqaz cəbhəsi Rusiya imperiyasının hərbi planlarında çox önəmli yer tuturdu. Qafqaz cəbhəsində hərbi əməliyyatların başlaması ilə bir vaxtda, Rusiya hakim dairələri və hərbi komandanlığı yerli müsəlman kürd və türk əhalisinə qarşı erməni, aysor və yezidi kürdlərini mübarizəyə qaldırdı. Onları silahlandırmaq üçün Qafqaz canişini İ. Vorontsov-Daşkov Hərbi nazirlikdən 25 min üçaçılan tüfəng və 12 milyon patron istəmiş və bu silah-sursatın bölüşdürülməsi üçün plan hazırlatmışdı [1, s.13]. Başlıca olaraq ermənilərə paylanan bu silah-sursat müsəlman əhalisinə qarşı kütləvi qətl və qarətlər törədilməsində istifadə edildi.

Müharibə başlayan kimi qatı erməni millətçilərinin cəmləşdiyi komitələr “Böyük Ermənistan” xülyalarının həyata keçirilməsi üçün Cənubi Qafqazda “böyük hay-küylə və

böyük enerji ilə erməni könüllü drujinaları təşkil etməyə başladılar" [2, s.13]. Bu drujinalar, Qafqaz cəbhəsində hərbi əməliyyatlar başladıqda, rus ordusu ilə birlikdə Türkiyəyə qarşı hərəkətə keçdilər. Cəbhə arxasında isə bir tərəfdən, Daşnaksutyun dəstələri, digər yandan da Hnçak qrupları kişiləri müharibədə olan türk və kürd əhalisi yaşayan kəndlərə quldur basqınları edərək qadın, uşaq və qocalara işgəncə verməyə, qətliamlar törətməyə başladılar. Rusiyadan göndərilən "könüllü erməni alayları"nın da qatılması nəticəsində Türkiyə ərazisində fəaliyyət göstərən silahlı ermənilərin sayı 30 minə çatdı [3].

## 2. Əsas hissə

Müharibənin ilk aylarından başlanan və getdikcə geniş miqyas alan bu qətliamlara qarşı Osmanlı dövləti bir sıra tədbirlər görməli oldu. Türklərin erməni silahlı dəstələrinə müqavimət göstərməsi nəticəsində hər iki tərəfdən xeyli insan həlak oldu. 1915-ci ilin fevralında Şərqi Anadolunun bütün erməni əhalisi qiyam qaldırdığı üçün, Osmanlı hökuməti qəti tədbirlər görməyə məcbur oldu. Fevralın 25-də Baş qərargah bütün hissələrə, ermənilərin heç bir halda hərbi xidmətə cəlb edilməməsi barədə təlimat göndərdi. Beləliklə, erməniləri tərkisilah etdilər. Lakin onları köməkçi hərbi hissələrdə həqiqi hərbi xidmətdə saxladılar.

1915-ci ilin aprelində rus ordusu Osmanlı komandanlığının başladığı hücum nəticəsində Oltu istiqamətində geri çəkilməyə məcbur oldu. Qafqaz cəbhəsində bu ağır döyüşlərin getdiyi zaman erməni silahlı dəstələri döyüşən Osmanlı ordu birliklərinin arxasında təxribat törədilməsini, yolları, körpüləri dağıdıb; ərzaq və sursat aparan arabalara, yaralıları daşıyan kanvoylara zərbə vurmağı, yaralıları məhv etməyi daha da genişləndirdilər.

1915-ci il əməliyyatlarında rus ordusunun əsas zərbə istiqaməti cinahlar oldu. Rus komandanlığı türkləri Batum rayonundan vurub çıxarmağı, İranda isə rus təsirini qorumaq üçün bütün Cənubi Azərbaycanı tutmağı qarşıya məqsəd qoymuşdu. Türk ordusu isə İran istiqamətində hücum edərək Bakı neft rayonunu tutmağı hədəfləyirdi. Aprelin sonunda Hərbi nazir Ənvər paşanın əmisi Xəlil paşanın komandanlığı altında türk hərbi hissələri Cənubi Azərbaycana daxil oldu. Türk komandanlığı buradan Bakıya və Yelizavetpola hücum etmək üçün plasdarm kimi istifadə etmək istəyirdi. Bu zaman Van bölgəsində türk qüvvələrinin olmamasından istifadə edən ermənilər qiyam qaldırdılar. Van valisinin 20 mart 1915-ci il tarixli teleqramında ermənilərin silahlı üsyanı barədə məlumat verildi və aydınlıq gətirildi: "Biz hesab edirik ki, 2000-dən çox üsyançı var. Biz bu üsyanı yatırmağa çalışırıq" [4, s.240]. Lakin bu səylər nəticəsiz qaldı, çünki 23 martda həmin qubernator üsyanın yaxınlıqdakı kəndlərə yayıldığını bildirirdi. Bir ay sonra isə vəziyyət Van vilayəti üçün daha da acınacaqlı hala gəldi. Valinin 24 apreldə İstanbula ünvanladığı teleqramdan bu aydın görünür: "Bölgədə 4000 üsyançı toplaşıbdır. Üsyançılar yolları kəsir, yaxınlıqdakı kəndlərə hücum edir və onları tabe edirlər. Hazırda bir çox qadın və uşaq ocaqsız və ya evsiz qalıb. ... Bu qadın və uşaqları (müsəlman olanları - R.Ə.) qərb əyalətlərinə aparmaq mümkündürmü?" [4, s.241]. Lakin həmin vaxt bu mümkün olmadı və nəticələr Van vilayətinin müsəlman əhalisi üçün fəlakətli oldu.

Van şəhərini ələ keçirən erməni qiyamçıları dinc türk əhalisini qırmağa başladılar. Mayın 6-da Vana daxil olan rus ordusu tərkibindəki erməni könüllü dəstələri - drujinaları da bu qırğınlarda fəal iştirak etdilər. Ümumiyyətlə, müharibənin əvvəllərindən erməni hərbi hissələri rus ordusunun qəddarlığı ilə seçilən dəstələrindən idi. Onlar Vana çatdıqdan sonra, növbəti iki gün ərzində yerli müsəlman əhalisinə qarşı qırğın təşkil edib, həyata keçirdilər. Vanda Rusiyanın himayəsi altında bir erməni dövləti yaradıldı [5, s.316]. Ermənilər müsəlman əhalisinin yoxa çıxmasından, öldürülməsindən və ya qaçmağa məcbur edilməsindən sonra, onların bir daha müqavimət göstərməyəcəklərini ehtimal edirdilər.

Bu faciəli hadisələrdən əvvəl Vanın erməni əhalisi cəmi 33 789 nəfər idi, yəni şəhərin ümumi əhalisinin yalnız 42 faizini təşkil edirdi. Burada çoxluq təşkil edən silahsız müsəlman-türk əhaliyə qarşı qırğın (ilk növbədə müsəlman kişilər - R.Ə.), sadəcə həmin vilayətdə məkanı boşaltmaq (etnik təmizləmə aparmaq - R.Ə.) məqsədi ilə həyata keçirilirdi [5, s.316]. Fransız tədqiqatçısı ***Jorj de Malevil*** xüsusi qeyd edirdi ki, "bu hərəkətlərdə təsadüfi və ya gözlənilməz heç nə yox idi. 1915-ci ilin aprelində erməni inqilabçıları (qiyamçıları - R.Ə.) Van şəhərini ələ keçirdilər və orada Daşnaksutyun partiyasının yerli liderləri Aram və Varelunun komandanlığı altında bir erməni qərargahı qurdular. Onlar bütün ərazini müsəlmanlardan təmizlədikdən sonra, mayın 6-da şəhəri rus ordusuna açdılar [6, s.20]. O zaman Vanda qırğınları təşkil edən erməni liderləri arasında Osmanlı parlamentinin keçmiş üzvü, Qarro adı ilə tanınan ***Pasdermacyan*** da var idi. O, türklər və ruslar arasında toqquşmalar başlayan zamandan erməni könüllülərinə rəhbərlik edirdi. 18 may 1915-ci ildə *rus generalı Nikolayev* Vanın erməni əhalisinə sədaqətlərinə görə minnətdarlığını bildirdi və qiyamçıların rəhbəri Aram Manukyanı Van vilayətinə qubernator təyin etdi [5, s.316].

1915-ci il iyulun 9-da türklər əks-hücuma keçdilər. Türk komandanlığı rus ordusunu Van gölündən şimaldakı çətin relyefli rayona sıxışdırıb məhv etmək istəyirdi. Türklərin əks-hücumu rus ordusunu müdafiəyə keçməyə məcbur etdi. Beləliklə, 9 iyul-3 avqust 1915-ci ili əhatə edən **Alaşkert əməliyyatı** həyata keçirildi. ***İngilis tədqiqatçısı Stanford J. Şou*** o dövr hadisələrini belə təsvir etmişdir: "Muşun minlərlə erməni sakini, eləcə də Türkiyənin şərqindəki digər bölgələrdə yaşayan ermənilər bu yeni Erməni dövlətinə (Vanda yaradılan erməni hakimiyyəti nəzərdə tutulur - R.Ə.) axın etməyə başladılar. Onların arasında qaçan məhbus dəstələri də var idi. İyulun ortalarına qədər Van bölgəsində ən azı 250 000 erməni cəmləşmişdi. Lakin iyulun əvvəlində Osmanlı birlikləri rus ordusunu geri oturtdu. Geri çəkilən rus ordusunu on minlərlə erməni müşayiət edirdi: onlar ölü doğulan dövlətin icazə verdiyi qətllərə görə qisas alınacağından qorxurdular" [5, s.316].

Geri çəkilən rus qoşunları ilə birlikdə təxminən 200 000 erməni də Vanı tərk etdi. Erməni qaçqınları yol boyu təkrarlanan kürd pusqularında əmlaklarının çox hissəsini itirərək Cənubi Qafqaza axışdı. Bu məcburi köç zamanı 40 000-ə qədər erməni yolda öldü [5, s.316]. Bu kimi hallara son qoymaq üçün Osmanlı dövlətinin rəhbərliyi müharibə şəraitində Şərqi Anadoluya nəzarəti itirməmək, öz ərazi bütövlüyünü qorumaq üçün, erməni əhalini qiyama

təhrik edən erməni xadimlərini həbs etməyi qərara aldı. 1915-ci il aprelin 24-də Daxili işlər nazirliyi erməniləri silahlandıran komitə yuvalarını dağıtmaq üçün erməni komitə mərkəzlərinin bağlanması, əmlaklarının müsadirə edilməsi, komitə başçılarının həbs edilməsi barədə əmr verdi. Bu təlimata uyğun olaraq 2345 erməni həbs edildi. Ermənilərin hər il soyqırımı günü kimi qeyd etdikləri 24 aprel günü əslində erməni komitəçilərinin həbs olunduğu gündür. Lakin bu həbslər erməni qiyamçılarının öz qanunsuz əməllərindən əl çəkib dinc yaşamaları üçün kifayət etmədi.

Osmanlı dövlətinin digər ciddi tədbiri **1915-ci il mayın 26-da** cəbhəyə yaxın bölgələrdə yaşayan ermənilərin daxili rayonlara köçürülməsi haqqında qərar verməsi oldu. Osmanlı dövləti ərazi bütövlüyünü qorumaq məqsədilə qiyamçı erməniləri Van, Bitlis, Ərzurum vilayətlərindən tamamilə, Adana, Maraş, Hələb, Mosul, Urfa, Zor bölgələrindən isə qismən köçürdü [7, s.28, s.29].

***“Təhcir”*** (köçürülmə - R.Ə.) qərarı müharibə vəziyyətində olan Osmanlı dövlətinin qiyam qaldıran və dinc müsəlman türk və kürd əhaliyə qarşı qətliamlar törədən erməni canilərinin həbs edilməsi və onların tərəfdarlarının başqa ərazilərə köçürülməsi kimi qiymətləndirilməli olan zəruri, həyati əhəmiyyətə malik müdafiə tədbiri idi. ***Ermənistan Respublikasının ilk baş naziri O. Kaçaznuni*** 1915-ci ilin yazında və yayında Türkiyə ermənilərinin məcburi köçürüldüklərini, kütləvi sürgün edildiklərini öz məruzəsində etiraf etmişdi: “Türklər nə etdiklərini bilirdilər və bu gün peşmanlıq hiss etmələri üçün bir səbəb yoxdur; Türkiyədə erməni məsələsinin həmişəlik həlli baxımından bu qərar ən cəsarətli və ən uyğun vasitə idi” [2, s.13].

O zaman Osmanlı dövlətinin şərq vilayətlərində 800 mindən - 1,2 milyon nəfərə qədər erməni əhalisi yaşayırdı. Lakin müasir dövrdə erməni təbliğatı Osmanlı dövlətinin Şərq vilayətlərindən ermənilərin köçürülməsini **“soyqırımı”** kimi təqdim edir və bu köçürülmə zamanı 1,5 milyon erməninin məhv olduğunu iddia edirlər.

Qafqaz cəbhəsində rus qoşunlarının baş ştab rəisi **general-mayor L.M. Bolxovitinov** erməni drujinaları və ümumiyyətlə erməni hərbiləri və siyasətçiləri ilə sıx təmas halında olduğundan, məsləhət görürdü ki, “ermənilərin Türkiyədə yaşadıqları bədbəxtlikləri şişirtməyə meylli olduqlarını nəzərə alsaq, onların Türkiyədəki itki və zərərlərlə bağlı təqdim etdikləri rəqəmlərə çox diqqətli yanaşmaq lazımdır” [8, s.52].

1919-cu ildə Türkiyənin Şərq vilayətlərində olmuş ***Harbord missiyası*** hesabatında bildirmişdi ki, “1914-cü ildə Asiya Türkiyəsində ermənilərin sayı 1,5 milyon nəfər olub, onlar Anadoluda pərakəndə halda yaşayıblar” [9, s.7].

Bəs əslində nə baş verib və neçə nəfər erməni, türk və digər xalqların nümayəndələri həlak olmuşlar? Bu məsələni obyektiv araşdırmaq üçün, müəllif müxtəlif xarakterli faktları və statistik göstəricilərə müraciət etmişdir.

İlk dəfə bu məsələyə nisbətən geniş miqyasda rus tədqiqatçısı tarixçi ***V.A. Qurko-Kryajin*** müraciət etmişdir. Onun 1926-cı ildə “Böyük Sovet Ensiklopediyası” üçün “Erməni məsələsi” adlı məqaləsində təqdim etdiyi statistik məlumatlar, bu baxımdan çox maraqlıdır.

Birincisi, bu məqalə yazılarkən, Birinci dünya müharibəsi yenicə başa çatmışdı və nə baş verdiyi hamının xatirəsindən silinməmişdi. İkincisi, məqalədən aydın göründüyü kimi müəllif türklərə və Türkiyəyə son dərəcə neqativ mövqe tuturdu və ermənilərin 1915-ci il köçürülməsi zamanı həlak olanlar və sağ qalanlarla bağlı qeyd etdiyi rəqəmləri, türklərin istəyinə uyğun olaraq, qəsdən azaltmaq niyyəti ola bilməzdi.

V.A. Qurko-Kryajinin haqqında bəhs edilən məqaləsində yazılmışdır ki, 1915-ci ildə ermənilərin Qafqaz cəbhəsinə yaxın bölgələrdən köçürülməsi zamanı 400 min erməni Osmanlı dövlətinin mərkəzi və Aralıq dənizi sahili bölgələrinə yerləşdirilmiş, 200 mini Rusiyaya qaçmış, daha 200 mini Rusiya işğalı altında olan bölgələrdə qalmış, 300 minə qədər erməni də köç məhrumiyyətlərinə tab gətirməyərək ölmüşdü [10, s.10]. O, 1915-ci ildə erməni qaçqınların bir hissəsinin də Kilikiyaya köçüb yerləşdiyini qeyd etmişdir [10, s.13]. Osmanlı dövləti tərəfindən Aralıq dənizi sahili bölgələrinə köçürülən 100 min nəfərə qədər erməni isə daha sonra üçüncü ölkə vasitəsilə Amerikaya, Fransaya köçüb getmişdi.

1980-ci ildə İrəvan Dövlət Universitetinin hazırladığı *"Erməni xalqının tarixi"* adlı dərslikdə 1914-1916-cı illərdə Osmanlı dövlətinin Şərq vilayətlərindən Rusiya hüdudlarına 350 min ermənənin köç etdiyi, bir neçə yüz min ermənənin isə Suriya və Mesopotamiya (İraq - R.Ə.) bölgələrinə köçürüldüyü, onların çoxunun aclıq və epidemiyalardan məhv olduğu bildirilmişdir. Qeyd edilmişdir ki, sağ qalan erməni əhalisi Suriya ilə yanaşı, Livan və Misirdə yerləşmiş, bir qismi də Avropa və Amerika ölkələrinə köçüb getmişdi [11, s.268].

***"1917-ci il üçün Qafqaz təqvimi"ndə*** qeyd edilmişdir ki, 1915-ci ilin iyulunda Qafqaz cəbhəsindəki döyüşlərdən sonra Osmanlı hüdudlarından 250 min nəfər qaçqın erməni Rusiya hüdudlarına gəldi. Qafqaz canişininin tapşırığı ilə qaçqınların yerləşdirilməsi üçün İrəvan və Yelizavetpol (Gəncə - R.Ə.) quberniyalarında müvafiq təşkilatlar yaradıldı [12, s.345].

Erməni əsilli amerikan tarixçisi ***Ronald Qriqor Syuni*** "Ararat dağına baxış. Müasir tarixdə Ermənistan" (Looking Toward Ararat: Armenia in Modern History, Bloomington, Indiana University Press, 1993) adlı əsərində "erməni soyqırımı" haqqında yazmışdır: "Bəzi müəlliflər öz tənqidlərini qurbanların sayını inkar etməklə məhdudlaşdırır, onların sayının 200 mindən çox olmadığını iddia edirlər. Digərləri soyqırımı anlayışını inkar edirlər, çünki düşünülmüş məhvetmə siyasəti Türkiyə rəhbərliyinin adı ilə əlaqələndirilə bilməz. Bir sıra müəlliflər də, Anadoluda vətəndaş müharibəsindən bəhs edirlər, türklərin də, ermənilərin də həlak olduqlarını qeyd edirlər" [13, s.194-195].

1980-ci illərdə ABŞ prezidenti Ronald Reyqanın hüquq məsələləri üzrə məsləhətçisi olmuş ***Bryus Feyni*** "erməni soyqırımı" ilə bağlı araşdırmalarında qeyd etmişdir ki, 1915-ci ildə köçürülən ermənilərin sayı təxminən 700 000 nəfər idi, bu zaman ölənlərin sayı 280 000 nəfərə qədər olmuşdur [14].

Birinci dünya müharibəsinin sonunda İstanbulu işğal etmiş ingilis komandanlığı Osmanlı arxivlərində ermənilərin köçürülməsi zamanı onların öldürülməsinə rəsmi əmr verilməsi ilə bağlı heç bir sənəd aşkar etməmişdir. Müharibə zamanı dinc əhalinin kütləvi

köçürülməsi, xüsusən qocalar və xəstələr üçün çox ağır yük idi. Dağlıq bölgələrdə hələ soyuqların davam etdiyi bir zamanda insanların köçürülməsi xəstəlik və epidemiyalara da yol açmışdı. Erməni köçlərinə müsəlman kürdlərin basqınları da, onlar arasında tələfata səbəb olmuşdu. Ona görə də, 300 minə qədər ermənininin köçürülmə zamanı ölməsi bir faktdır. Lakin bu köçürülmə əməliyyatı o zaman Osmanlı dövlətinin hərbi zərurətdən doğan tədbiri idi. Çoxlu sayda dinc əhalinin ölməsi də belə böyük köçlər zamanı təbii hal idi.

Osmanlı imperiyasının Qafqaz cəbhəsinə yaxın bölgələrində yaşayan erməni əhalisi yüzillər boyu əmin-amanlıqda yaşadıqları dövlətə qarşı öz qeyri-loyal və xəyanətkar münasibətləri ilə köçürülməni zəruri etmişdi. O vaxt Osmanlı imperiyası tərəfindən ermənilərin döyüşən orduya arxadan xəyanətkar basqınlarının qarşısını almaq üçün, onları cəbhə xəttindən uzağa köçürməsi hərbi zərurətdən doğan qanuni addımı idi. ABŞ bu hüquqa əsaslanaraq, İkinci dünya müharibəsi illərində ölkənin yapon mənşəli bütün vətəndaşlarını qərb sahillərindən köçürmüşdü. İ. Stalin də bu hüquqdan istifadə edərək Sovet dövlətinin təhlükəsizliyini qorumaq üçün Volqaboyunda yaşayan almanları Qazaxıstana və Orta Asiyaya köçürmüşdü [15, s.134]. Tarixdə belə nümunələr çox olmuşdur.

Rus ordusunun Cənub-Qərbi Qafqazda hücumu zamanı ermənilər həm rus ordusu sıralarında vuruşur, həm də Osmanlı ordusuna arxadan zərbələr endirir, təchizat sistemini pozmaq üçün diversiyalar təşkil edirdilər. Erməni könüllü hərbi birlikləri, xüsusən də yeni işğal edilmiş bölgələrdə türk-müsəlman əhalisinə qarşı qətl-qarətlərdə fəal iştirak edirdilər. Erməni katolikosu *V. Gevorq* hələ Qafqaz cəbhəsində döyüşlərin başlanmasından öncə, Qafqaz canişini İ. Vorontsov-Daşkova bildirmişdi ki, bütün erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə can atır [1, s.11-12]. İ. Vorontsov-Daşkov da, erməni dəstələrini silahllandırmaq üçün dərhal hərəkətə keçmişdi. O, hərbi nazirə teleqramında Osmanlı hüdudlarında - Oltu, Sarıqamış, Kaqızman və İqdırda erməni dəstələri yaradıldığını bildirmişdi.

1915-ci il fevralın 7-də Qafqaz canişininin Rusiya Xarici İşlər Nazirinə ünvanladığı teleqramında isə bildirilirdi ki, ümumi sayı 15 minə çatan erməni dəstələri Zeytunda Osmanlı ordusunun arxasında rabitə əlqəsini pozmuş, həmçinin Ərzurum yolunu bağlamışlar. Canişin bu məlumatı əsas götürərək, ermənilər üçün İngiltərə və Fransadan gəmi ilə silah-sursat yardımı göndərilməsini təklif etmişdi [1, s.75]. 1915-ci il martın 2-də Rusiya Xarici işlər nazirinin Fransaya ünvanladığı məlumatda Mersində ermənilərin Fransa təsirinə düşməyə qarşı çıxdıqları, müstəqil "Böyük Ermənistan" yaratmaq tamahları barədə məlumat verilirdi [1, s.86].

1915-ci il aprelin 9-da Tiflisdə ermənilərin mətbuat orqanlarının səhifələrində Van və Bitlisdə ermənilərin dağıntı törətdikləri, Vanda karvansaranı partlatdıqları bildirilmişdi. Aprelin 23-də *Xoydakı rus vitse-konsulu V. Vedenski* Xarici İşlər Nazirinə raportunda bildirirdi ki, Vanda ermənilər üsyan qaldırıblar.

Osmanlı hökuməti isə şəhəri toplarla bombardman etməklə hədələyirdi. 1915-ci ilin mayında Rusiya ermənilərinin lideri *doktor Y.X. Zavriyev* Paris və Londona səfər edərək bu ölkələrdən qiyam qaldırmış ermənilərə yardım edilməsini istəmiş, Türkiyənin 6 şərq vilayəti, həmçinin Kilikiya və Mersin vilayətlərindən ibarət erməni dövləti yaradılması planını

açıqlamışdı. Bu dövrdə Rusiyanın işğal etdiyi Cənub-QƏRBİ Qafqazda və digər bölgələrdə ermənilərin özbaşınalıqları, qətl-qarətləri haqqında rus hərbçiləri də bir-birinin ardınca tükürpədici məlumatlar verirdilər.

1915-ci ilin yanvarında *Qars vilayətinin müvəqqəti general-qubernatoru Zubov* yerli əhaliyə müraciətində bildirmişdi ki, Osmanlı dövləti ilə müharibə başladıqdan sonra az mədəniyyətli xristian əhalisinin bir hissəsi (yəni ermənilər - R.Ə.) yerli müsəlmanlara qarşı düşmənçilik edir. Açıq hücum təşkil edərək dinc müsəlmanları öldürürlər [16, 12.I.1915, №837]. Rus hərbçilərinin raportlarında da erməni dəstələrinin cəbhə arxasında kişiləri müharibədə olan türk şəhər və kəndlərinə basqınlar etməsi, dinc əhalinin kütləvi məhv etməsi, Osmanlı hərbi qüvvələrinə arxadan zərbə vurması, türk qoşunlarının hərəkətini əngəlləməsi, təchizat yollarını dağıtması haqqında çoxlu sayda məlumatlar vardır. General Nikolayevin 1915-ci il iyulun 1-də, Qafqaz ordusunun ştab rəisi general L.M. Bolxovitinovun 1915-ci ildə Qafqazın yeni canişini böyük knyaz Nikolaya göndərdiyi məlumatlar [8] bu baxımdan xarakterikdir. Həmin raportlardan bəlli olur ki, Pero və Xeço adlı ermənilərin başçılıq etdikləri dəstələr dinc türk əhalisini terror aktları ilə yurdlarından qovur, həm də bu zaman sadə erməni əhalisini də qırıb, günahı Osmanlı dövlətinin nümayəndələrinin üzərinə yıxırmışlar. Onlar bu yolla ermənilərdə türklərə qarşı nifrəti qızışdırmaq məqsədi güddüklərini etiraf edirdilər. Hətta iş o yerə çatmışdı ki, Vana hücum edən rus ordusuna da erməni dəstələri arxadan zərbə vurmağa başlamış, təchizatı pozub, bunun da günahını dinc müsəlman-türk əhalisi üzərinə yıxmışdılar. Lakin rus komandanlığı bu fitnəkarlığı vaxtında duymuş, rus ordusunun təchizatını pozan erməni dəstələrinə qarşı hərbi qüvvə tətbiq etmişdilər.

General L.M. Bolxovitinovun raportunda erməni drujinalarının cəbhə bölgələrində dinc əhaliyə qarşı qeyri-insani davranışları, qətliamları rus zabitlərinin mənfi münasibəti haqqında aşağıdakı məlumatı da bu baxımdan maraqlıdır: "Ümumilikdə, erməni drujinaçıların çox vaxt aldıqları hərbi rütbənin şərəfinə uyğun olmayan davranışları Qafqaz Ordusunun komandirləri və zabitləri arasında bir qədər tənqidi münasibətə səbəb oldu. Demək olar ki, hər bir döyüş zabiti təkcə drujinaçılar tərəfindən deyil, həm də komandirləri tərəfindən hərbi intizamın pozulmasının, aralarındakı nifaq və intriqaların, lovğalığın, bir sıra hallarda isə qorxaqlıq, oğurluq və soyğunçuluq hallarının və nəhayət, işğal etdiyimiz türk bölgələrinin dinc müsəlman əhalisinə qarşı zorakılığın şahidi olurdu. Xüsusilə, bu cür zorakılığın mövcudluğu və kürd kəndlərinin əhalisinin erməni hərbi qulluqçuları tərəfindən cinsinə və yaşına fərq qoymadan, demək olar ki, tamamilə məhv edilməsi ... yazışmalarla sübut olunur"[8, s.81-82].

Rusiya hakim dairələrində erməni siyasətçilərinin "Böyük Ermənistan" yaratmaq planlarına qarşı mənfi münasibətini ilk dəfə knyaz *A. Lobanov-Rostovski* açıqlamışdı. O, 1878-ci ildə yeni işğal olunmuş ərazilərdə "ermənilərsiz Ermənistan" yaratmağı, həmin yerlərə kazakları köçürməyi təklif etmişdi. 1915-ci ilin yazında rus ordusunun ermənilərin kütləvi yaşadığı bölgələrdə hücum əməliyyatlarına başlamaması, hətta bəzi istiqamətlərdə geri çəkilməsi, təkcə hərbi zərurətdən irəli gəlmir, həm də bu siyasətə xidmət edirdi.

**Hnçak partiyası rəhbərliyi** 1915-ci ildə Türkiyədə ermənilərin başına gələn fəlakətlərin Daşnaksutyun liderlərinin təşəbbüsü ilə yaradılan könüllü dəstələrin hərbi əməliyyatlarda iştirakının nəticəsi olduğunu bəyan edir, daşnakları günahlandırırdı ki, erməni drujinalarının rus ordusu tərəfindən döyüşlərə girməsi, Türkiyənin qisasına səbəb oldu. Lakin **Daşnaksutyun partiyasının nümayəndələri** də uğursuzluğun müəyyən hərbi liderlərin və Qafqaz administrasiyasının hərəkətlərində olduğunu iddia edərək özlərini haqlı çıxarırdılar. Onlar iddia edirdilər ki, Rusiya hakimiyyəti təmsilçiləri "guya ermənilərsiz Ermənistan yaratmaq üçün ermənilərin Ermənistandan (Şərqi Anadoludan - R.Ə.) süni şəkildə qovulmasını təşkil etmişdilər" [8, s.34-35].

Doğrudan da, Rusiya komandanlığı yalnız 1916-cı ilin yazında, Şərqi Anadoludan ermənilər kütləvi şəkildə köçürüldükdən sonra, Ərzurum və Trabzon istiqamətində böyük hücuma başlamış, bu bölgələri işğal etmişdi. Həm də erməni siyasətçilərinin gözlədiklərinin əksinə olaraq, 1916-cı il iyunun 5-də rus komandanlığı yeni işğal edilmiş vilayətlərinin idarəsi haqqında müvəqqəti əsasnamə təsdiq etmiş, Muş, Bitlis, Van və digər işğal edilmiş ərazilər əsasında ayrıca general-qubernatorluq yaratmışdı. General-qubernator vəzifəsinə general Paşkov təyin edilmişdi.

1914-1917-ci illərdə Cənub-Qərbi Qafqazda və Şərqi Anadoluda baş verən qətl və qarətləri araşdırmış ***Castin* və *Karolin Makkartilər*** rus, erməni hərbi birliklərinin işğal etdikləri ərazilərdə ərazilərdə 1 milyondan çox müsəlmanın məhv edildiyini və ya deportasiyaya məruz qaldığını qeyd etmişlər. Amerikalı demoqraf və Louisville Universitetinin keçmiş tarix professoru Castin Makkarti yazmışdır ki, "erməni diasporu 1973-cü ilə qədər 1915-ci il hadisələrindən bəhs edərkən, heç vaxt baş verənləri erməni soyqırımı adlandırmamışlar" [17, s.338]. Rus tarixçisi və şərqşünası ***M.S. Meyer*** də təkzibolunmaz sübutlar gətirmişdir ki, 1915-ci il hadisələri soyqırımı deyil, hərbi zərurətdən doğan və alman komandanlığının məsləhəti ilə həyata keçirilən köçürmə tədbiri idi [18].

Birinci dünya müharibəsi dövründə türk-müsəlman əhalisinin qətl və qarətlərə məruz qalmasına dair faktların təhlili göstərir ki, bəhs olunan dövrdə 2 milyondan çox türk-müsəlman əhalisi məhv edilmişdi.

1980-ci illərdə ABŞ-ın prezidenti Ronald Reyqanın hüquq məsələləri üzrə məsləhətçisi olmuş ***Bryus Feynin*** "erməni soyqırımı" ilə bağlı açıqlamaları bu baxımdan diqqəti cəlb edir. O etiraf etmişdir ki, R. Reyqanın göstərişinə əsasən, Osmanlı imperiyasında 1915-ci il hadisələri ilə əlaqədar araşdırma aparıb, nəticədə maraqlı faktlar üzə çıxarmışdır: "Ağ Ev Osmanlı imperiyasında 1915-ci il hadisələri ilə bağlı araşdırmalara başladı. Prezident Reyqanın tapşırığı ilə biz Avropa ölkələrinin hərbi arxivlərində və Osmanlı imperiyasının arxivlərində araşdırmalar apardıq. Bunun nəticəsində məlum oldu ki, erməni siyasətçi və tədqiqatçılarının "soyqırımı" ilə bağlı ittihamları tam olaraq əsassızdır. Guya 1,5-2 milyon erməninin öldürülməsi barədə iddialar sadəcə olaraq erməni tarixçilərinin təxəyyülünün bəhrəsidir. Sənədlərə əsasən, 1915-ci ildə türklərin özləri soyqırıma məruz qalmışlar. Anadoluda erməni quldur dəstələri 2,4 milyon türkü məhv etmişlər [19].

Amerikan siyasətçisi Bryus Feyn xüsusi olaraq qeyd etmişdir ki, "Birinci Dünya müharibəsi zamanı ermənilər vətənləri sayılan Osmanlı imperiyasına xəyanət etmiş və türklərin düşmənlərinə qoşulmuşdular. Ermənilər Qafqaz cəbhəsində Osmanlı imperiyasına qarşı ruslarla yan-yana vuruşurdular. Onlar türk və gürcü kəndlərini qarət edirdilər, dinc sakinləri öldürürdülər. Bizim təhqiqatımız zamanı türklər öz arxivlərindən istifadə etməyə icazə verdilər. Ümumiyyətlə, bütün dövlətlər bu məsələdə öz arxiv qapılarını bizim üzümüzə açdılar. Ermənistan tərəfi isə arxivlərini göstərməkdən imtina etdi. Mənim fikrimcə, əgər bu arxivlər açılsa, bütün həqiqət üzə çıxacaqdır. Onda ermənilər bütün dünyadan və xüsusilə də türklərdən üzr istəməli olacaqlar" [19].

**Nəticə.** Birinci dünya müharibəsi dövründə dinc erməni əhalisinin cəbhəyanı bölgələrdən köçürülməsi və bu zaman 300 minə qədər ermənininin məhv olması, o zamankı erməni siyasətinin, kilsə xadimlərinin, "ziyalı"ların yalnış təbliğatının birbaşa nəticəsi idi. Həmçinin, o zaman Rusiya hökuməti də ermənilərdən öz məqsədləri üçün istifadə etmiş, işğal bölgələrindən ermənilərin köçürülməsinə seyrçi qalmış və dolayısı ilə buna şərait yaratmışdır. Ona görə də, "erməni soyqırımı"na həsr olunmuş bəzi əsərlərdə Osmanlı dövləti ilə yanaşı, Rusiya da günahkar sayılır. Maraqlıdır ki, belə mövqedən çıxış edən erməni tədqiqatçısı 2015-ci ildə, uydurma "erməni soyqırımı"nın 100 illiyinin qeyd edilməsi ərəfəsində, erməni hakimiyyətinin göstərişi ilə öldürülmüşdür.

1915-ci ildə ermənilərin köçürülməsi zamanı nə qədər ermənininin yolda xəstəlikdən və aclıqdan öldüyü, nə qədərinin də qənimət və qadın ələ keçirmək istəyən kürdlər və erməniləri kafir və xain sayan fanatik müsəlmanlar tərəfindən öldürüldüyünü dəqiq müəyyən etmək çətindir. Lakin bu faciəli hadisələrə görə Osmanlı dövlətini günahlandırmaq, gənc türklər hakimiyyətini qəsdən bu qığınlara şərait yaratmaqda ittiham etmək doğru deyildir [18]. O zamankı hakimiyyət təmsilçilərinin səriştəsizliyi, bir çox hallarda isə səhlənkarlığı üzündən yaralı türk əsgərlərinin, hərbi əsirlərin və qaçqınların ölümü haqqında çoxlu sayda faktlar, şahid ifadələri olsa da, bu qəsdən adam öldürməyə bərabər cinayət sayıla bilməz.

Ümumiyyətlə, 1914-1916-cı illərdə, xüsusən də 1917-ci il Fevral inqilabından sonra Qafqaz cəbhəsində və cəbhəyə yaxın bölgələrdə, sonra da bütün Cənubi Qafqazda erməni əhalisinin köçürülməsi və bu zaman üzləşdikləri məhrumiyyətlər, həmçinin erməni silahlı dəstələrinin türk-müsəlman əhalisinə qarşı kütləvi zorakılıqlarının, qətl-qarətlərinin araşdırılması müasir Qafqazşünaslıqda və Vətən tarixinin öyrənilməsi baxımından, mühüm vəzifə olaraq qalmaqdadır.

## Ədəbiyyat

1. Qasımov M.C. (2000), Birinci Dünya Müharibəsi İllərində Böyük Dövlətlərin Azərbaycan Siyasəti (1914-1918-ci illər), 3 hissədə, I hissə (1914-cü il avqust - 1917-ci il oktyabr). Bakı: Qanun, 300; III hissə (sənədlər, materiallar, xəritələr, şəkillər). Bakı: Adiloğlu nəşriyyatı, 2004, 532.

2. Качазнуни О. (1990), Дашнакцутюн Больше Нечего Делать! Тифлис, 1927. Баку: Элм, 92.
3. https://turksunas.wordpress.com/2016/11/11/ Müraciət tarixi: 20.03.2026.
4. Кямуран Г. (1993), Армянское Досье. Баку, Язычы, 96.
5. Shaw S.J., Shaw E.Z. (1977), History of the Ottoman Empire and Modern Turkey. Cambridge University Press. https://psi427.cankaya.edu.tr/uploads/files/Shaw,%20History_of_the%20Ott%20Empire.pdf Müraciət tarixi: 20.03.2026.
6. Малевил Ж. (1990), Армянская Трагедия 1915 Года. Баку, Элм, 128.
7. Binark İ. (1995), Osmanlı Belgelerinde Ermeniler (1915-1920). Ankara.
8. Мустафа-заде А. (2011), Рапорт генерал-майора Болховитинова о деятельности армянских вооруженных отрядов в Турции и Закавказье в Первую Мировую войну. Баку: Азернешр, 144.
9. Harbord J.G. (1920), Report of the American Military Mission to Armenia. Vashington, Government Printing Office. http://armenianhouse.org/harbord/conditions-near-east.htm Müraciət tarixi: 20.03.2026.
10. Гурко-Кряжин В.А. (1990), Армянский Вопрос: Статья из Большой Советской Энциклопедии 1926 Года Издания. Баку: Коммунист, 16.
11. Нерсисян М.Г. (1980), История Армянского Народа с Древнейших Времен до Наших Дней. Ереван, 460.
12. Кавказский календар на 1917 г. (1916), Тифлис.
13. Suny R.G. (1993), Looking toward Ararat. Armenia in Modern History. Bloomington, 304. https://archive.org/details/lookingtowardara00rona/page/n7/mode/2up Müraciət tarixi: 10.03.2026.
14. Экс-советник президента США: Настоящую резню устроили армяне. https://www.trtrussian.com/article/5275058 - 27.04.2021 Müraciət tarixi: 10.03.2026.
15. Hacıyeva Ş.Ş. (2012), Azərbaycan və Türkiyənin ortaq problemi "erməni məsələsi": Xocalı soyqırımı və uydurma "erməni soyqırımı". Tarix və Onun Problemləri, No.2, 132-138.
16. İqbal qəzeti, 1915-ci il.
17. McCarthy J. (1995), Death and Exile: The Ethnic Cleansing of. Ottoman Muslims, 1821-1922. Princeton, NJ: The Darwin Press, 368.
18. Михаил Мейер: Сто лет назад турок и армян стравили Германия и Франция. https://news.day.az/politics/794972.html Müraciət tarixi: 23.03.2026.
19. Экс-советник президента США: Настоящую резню устроили армяне. https://www.trtrussian.com/article/5275058 Müraciət tarixi: 23.03.2026.
20. Советник бывшего президента США Рональда Рейгана Брюс Фейн: Армяне истребили два миллиона османских турков. https://azertag.az/ru/xeber/714988 Müraciət tarixi: 23.03.2026.
21. https://web.archive.org/web/20110716190531/http://www.taldf.com/complaint.pdf Müraciət tarixi: 23.03.2026.